

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 186 (21.338)

23 sentyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də İraqın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Heydər Şiya Əl-Barrakı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Azərbaycan-İraq ikitərəfli münasibətlərinin çox yaxşı səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq səviyyədə əməkdaşlıq etməsini və bir-birinə qarşılıqlı dəstək verməsini yüksək qiymətləndirib. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, enerji və digər sahələrdə daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu bildirib.

Heydər Şiya Əl-Barrak qarşıdan gələn Qurban bayramı münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da genişləndirilməsi istiqamətində əlindən gələni əsirgəmədiyini deyən Heydər Şiya Əl-Barrak səfirliyin fəaliyyətinə yaradılan yüksək şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

## Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Artist"**

Əsgərov Mübariz Səməd oğlu

Nəcəfov Tural Nüsrət oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**

Məmmədov Nizami Tahir oğlu

**"Əməkdar Müəllim"**

Əfəndiyeva Nüşabə Yusif qızı

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 22 sentyabr 2015-ci il*

# Babək rayonunun Xal-xal kəndində kompleks quruculuq işləri aparılmışdır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Hər bir bölgədə quruculuq, inkişaf daha da sürətlə getməlidir".***

Naxçıvan Muxtar Respublikasında quruculuq işlərinin həcmi ilbəil artır. Şəhər və kəndlərdə yeni sosial obyektlər inşa olunur, xidmət sahələri yaradılır. Kənd yollarının yenidən qurulması, yeni məktəb binalarının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi əhalinin rahat yaşayışına səbəb olmuşdur.

Sentyabrın 22-də Babək rayonunun Xal-xal kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Xal-xal kənd yolu müasir tələblərə cavab verir

Hər bir yaşayış məntəqəsinin abadlığını təsdiq edən əsas amillərdən biri də onun yollarının müasir və rahat olmasıdır. Bu gün muxtar respublikada şəhər, qəsəbə və kənd yollarının təmiri və yenidən qurulması diqqət mərkəzində saxlanılır. Bu işlər Babək rayonunda da uğurla həyata keçirilir.

Sentyabrın 22-də Xal-xal kənd avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, sakinləri təbrik etmiş, yolda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, tikinti işləri zamanı kənddaxili 3 kilometr yola asfalt örtük salınmışdır. Avtomobillərin, eləcə də piyadaların rahat hərəkəti üçün müvafiq yol-hərəkət nişanları quraşdırılmış, hərəkətin təhlükəsizliyi təmin olunmuşdur. Yolda 50 su keçidi tikilmiş, 1100 metr beton kanal çəkilmişdir.



## Xal-xal kənd tam orta məktəbi üçün yeni bina inşa olunmuşdur

Sentyabrın 22-də Xal-xal kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə məktəbin direktoru İlqar Quliyev çıxış edərək demişdir ki, muxtar respublikanın bütün yaşayış məntəqələrində yeni məktəb binaları tikilir, maddi-texniki baza möhkəmləndirilir. Bu gün Xal-xal kənd tam orta məktəbi də müasir təhsil müəssisələrinin sırasına qoşuldu. Məktəbdə yaradılan şərait gənclərin yaxşı təhsil almasına, onların hərtərəfli inkişafına xidmət edəcəkdir. Müasir tədris şəraiti müəllimlərin üzərinə düşən məsuliyyəti daha da artırır. Kollektiv adından minnətdarlıq edən İlqar Quliyev yaradılan şəraitdən istifadə edərək təhsilin səviyyəsini yüksəldəcəklərinə söz vermişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müəllim və şagirdləri yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm sahəsidir"***, – fikrini xatırladaraq demişdir: Ölkə Prezidenti cənab İlham Əliyev ulu öndərin tövsiyələrinə uyğun olaraq təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərir. Hər il onlarla yeni məktəb binaları, universitet şəhərcikləri tikilərək ölkəmizin gələcəyi olan gənclərin istifadəsinə verilir.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada məktəblər müasir tədrisin tələblərinə uyğun qurulur. Bu da kollektiv qarşısında mühüm vəzifələr qoyur. Müəllimlər çalışmalıdırlar ki, məktəblərdə təhsilli, vətənpərvər gənclər yetişdirilsin. Məktəbi bitirən hər bir gənc istər peşə məktəblərində, istərsə də orta ixtisas və ali təhsil müəssisələrində təhsillərini davam etdirməli, mütləq bir peşə sahibi olmalı, vətənpərvər böyüməlidirlər. Gələcəkdə harada yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq, hər bir gənc, ilk növbədə, dövlətinə və xalqına xidmət etməli, ölkəmizin gələcəyi üçün məsuliyyət daşımalıdır. Bütün bunları isə gənclərə müəllimlər aşılamalı, onlar yalnız təhsilli deyil, həm də vətənpərvər gənclər yetişdirməlidirlər.

Qeyd olunmuşdur ki, Xal-xal kənd tam orta məktəbi uzun müddət uyğunlaşdırılmış və şəraiti olmayan binada fəaliyyət göstərmişdir. Lakin buna baxmayaraq, məktəbin nailiyyətləri olmuşdur. Ötən tədris ilinin nəticələrinə əsasən, məktəbin fəaliyyətini qənaətbəxş hesab etmək olar.

Qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür edən Ali Məclisin Sədri kollektivin bundan sonra da yaradılan şəraitdən düzgün istifadə edəcəyinə əminliyini bildirmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

Məlumat verilmişdir ki, üçmərtəbəli məktəb binası 192 yerlikdir. Məktəbdə 3-ü elektron lövhəli olmaqla 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter və müəllimlər otaqları, kitabxana, bufet, idman zalı istifadəyə verilmiş, həyətdə açıq idman qurğuları quraşdırılmışdır.

Təhsil ocağında şagirdlərin asudə vaxtının səmərəli təşkilinə və biliklərinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir. Məktəbin kitabxana fondunda 1300 latın qrafikalı dərslik və 1550 bədii ədəbiyyat olmaqla 2850 kitab vardır. Şagirdlər dərs saatlarında əldə etdikləri bilikləri burada daha da möhkəmləndirəcək, dünyagörüşlərini artıracaqlar.

Ali Məclisin Sədri tədris prosesində kitabxana işinin düzgün təşkil olunmasının əhəmiyyətini qeyd etmiş, şagirdlərin kitabxanaya cəlb edilməsini tapşırmışdır.

İnformasiya texnologiyalarının tətbiqi təhsildə ən səmərəli vasitədir. Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarına əsaslanan müasir tədris sistemi qurulur. Həyata keçirilən tədbirlərin davamı olaraq Xal-xal kənd tam orta məktəbinin kompüter sinfində 17 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur. Burada informatika fənni nəzəri və praktik əsaslarla öyrədiləcəkdir. Həmçinin şagirdlər müxtəlif fənlərə aid internet resurslarından istifadə edə biləcəklər. İstifadəyə verilən elektron lövhəli siniflər isə elektron dərsliklərdən istifadə ilə yanaşı, distant dərslərin keçirilməsinə də imkan verəcəkdir.

Ardı 2-ci səhifədə





Ali Məclisin Sədri elektron lövhəli sinifdə Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın 212 təhsil müəssisəsi arasında keçirilən distant dərsi izləmişdir.

Məktəbin laboratoriyaları kimya, biologiya və fizika fənləri üzrə keçirilən dərslərin mövzusuna uyğun müasir təcrübə avadanlıqları ilə təchiz olunmuşdur.

Ali Məclisin Sədri birinci sinif şagirdlərinin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, 2015-2016-cı tədris ilində Xal-xal kənd tam orta məktəbində birinci sinfə 13 şagird qəbul olunmuşdur. Uşaqların əvvəlcədən məktəbə hazırlıq məşğələlərinə cəlb olunması onların dərslərdə daha fəal iştirakını təmin etmişdir.

Gənc nəslin intellektual inkişafı ilə yanaşı, sağlam və vətənpərvər ruhda böyüdülməsi də məktəb kollektivinin üzərinə düşən əsas vəzifələrdəndir. Binada geniş idman zalının, hər cür əyani vəsaitlərlə təmin olunan hərbi kabinənin istifadəyə verilməsi kollektivin bu sahədə işini xeyli asanlaşdırmışdır.




Ali Məclisin Sədri müəllimlərlə söhbət zamanı demişdir ki, ölkənin gələcəyi onun gənclərinin hansı səviyyədə yetişməsindən asılıdır. Təhsilli, vətənpərvər gəncləri olan ölkənin gələcəyi də parlaqdır. Ailələrdə uşaqlar məktəbə, məktəblərdə isə ölkənin gələcəyinə hazırlanırlar. Xal-xal kənd tam orta məktəbində də yaxşı təhsil ənənəsi vardır. Kollektiv yaradılan şəraitdən istifadə edərək gələcəkdə nailiyyətləri daha da artırmalı, məktəbdə təhsilli, vətənpərvər gənclər yetişdirilməlidir.

Müəllimlər adından minnətdarlıq edən Məhluqə Kərimova demişdir ki, kollektiv uzun illərdir köhnə, yararsız məktəb binasında dərs keçirdi. Bu gün müasir tələblərə uyğun məktəb binasının istifadəyə verilməsi hər bir müəllimi ürəkdən sevindirir, bunu təhsilə göstərilən qayğının daha bir ifadəsi kimi dəyərləndiririk. Bu gün ölkəmizdə müəllimlərin əməkhaqqı artırılır, onların sosial şəraiti ilbəil yaxşılaşdırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında" Sərəncamı da bunun bariz nümunəsidir.

Məktəbin həyəti də abadlaşdırılmış, yaşıllıqlar salınmışdır.

## Kənd mərkəzində müasir şərait yaradılmışdır






Xal-xal kəndində yeni kənd mərkəzinin istifadəyə verilməsi və dövlət qurumlarının bir binada yerləşdirilməsi sakinlərin rahatlığını təmin etmişdir.

Sentyabrın 22-də Xal-xal Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vasif İsmayılov demişdir ki, Xal-xal kəndi abad yaşayış məntəqəsinə çevrilmişdir. Bu gün kənddə insanların rahat yaşayışına xidmət edən ən müasir infrastruktur yaradılmışdır. Kənd tamamilə qazlaşdırılmış, bütün mənzillər fasiləsiz elektrik enerjisi ilə təmin olunmuş, təsərrüfatların inkişafı və genişləndirilməsi üçün hərtərəfli şərait yaradılmışdır. Bütün bunlar insanların torpağa bağlılığını daha da artırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Bu gün Xal-xal kəndinin həyatında əlamətdar gündür. Kənddə yeni sosial obyektlər tikilərək sakinlərin istifadəsinə verilir. Hər bir kəndin abadlaşması orada insanların rahat yaşamasına xidmət edir. Xal-xal kəndində çəkilən yeni yol, tikilən məktəb binası, kənd və xidmət mərkəzləri, kənd mərkəzində yerləşən feldşer-mama məntəqəsi, poçt bölməsi, baytarlıq məntəqəsi və digər xidmət sahələri əhaliyə daha yaxşı xidmət göstərilməsinə, eləcə də onların rahat yaşayışına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Bu gün Xal-xal kəndində görülən kompleks quruculuq işləri müasir Azərbaycan kəndinin nümunəsidir. Yaradılan şəraitdən düzgün istifadə isə kənd sakinlərinin və burada fəaliyyət göstərən dövlət qurumlarının üzərinə düşən əsas vəzifələrdir. Ona görə də sakinlər qurulanları qorumalı, yaşıllıqları artırmalı, təmizliyə diqqət yetirməli, yaradılan şəraitdən istifadə edərək təsərrüfatlarını genişləndirməlidirlər. Dövlət orqanlarında çalışanlar kəndin abadlaşmasında və inkişafında yaxından iştirak etməli, bu qurumların nizamlı və qanunauyğun fəaliyyətinə diqqət artırılmalıdır. Rayon İcra Hakimiyyəti də kəndlərdə inkişafın təmin olunması üçün lazımi tədbirlər görməli, məskunlaşma artmalıdır.

Ali Məclisin Sədri kənd sakinlərinin yaradılan şəraitdən səmərəli istifadə edəcəklərinə əminliyini bildirmiş, onları kənddə aparılan kompleks quruculuq işləri münasibətilə təbrik etmişdir.

Sonra Ali Məclisin Sədri kənd mərkəzinin açılışını etmişdir.

Məlumat verilmişdir ki, ikimərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik və baytarlıq məntəqəsi üçün otaqlar, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, rabitə evi, polis sahə və feldşer-mama məntəqələri, kitabxana və iclas zalı yerləşir. Binada dövlət orqanları üçün müasir iş şəraiti yaradılmış, otaqların hər biri zəruri mebel dəstləri ilə təchiz edilmişdir. Kənd mərkəzinin kitabxanasında 10 mindən artıq kitab vardır.

Kənd mərkəzindəki baytarlıq məntəqəsində nümunəvi şərait yaradılmış, lazımi dərman vasitələri və soyuducu qoyulmuşdur.

Baxış zamanı tapşırılmışdır ki, baytarlıq məntəqəsinin əməkdaşları kənddə heyvandarlığın inkişafını, əhalinin keyfiyyətli ət və süd məhsulları ilə təminatını diqqət mərkəzində saxlamalı, yerlərdə maarifləndirici tədbirlər və yoxlamalar aparmalı, mal-qara arasında baş verə biləcək yoluxucu xəstəliklərin qarşısı vaxtında alınmalıdır.

Rabitə evindəki poçt bölməsində lazımi şərait yaradılmışdır. Burada gündəlik mətbuatın, danışıq və internet kartlarının satışı və digər poçt xidmətləri həyata keçirilir.

Kənd mərkəzində feldşer-mama məntəqəsi üçün 3 otaq ayrılmışdır. Məntəqə müayinə və ilkin tibbi yardım üçün lazım olan bütün avadanlıqlarla təchiz olunmuş, lazımi dərman preparatları qoyulmuşdur.

Ali Məclisin Sədri insanların sağlamlığının diqqət mərkəzində saxlanılmasının vacibliyini bildirmiş, hamilə qadınların və uşaqların qeydiyyata alınması, onlara vaxtlı-vaxtında tibbi xidmət göstərilməsi barədə tapşırıqlar vermişdir.

## Kənddə yeni xidmət mərkəzi tikilmişdir

Həmin gün Xal-xal kəndində yeni xidmət mərkəzinin də açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsdikdən sonra xidmət mərkəzinə baxmışdır.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri və ərzaq-sənaye malları mağazası fəaliyyət göstərir. Xidmət mərkəzinin fəaliyyətə başlaması sakinlərə göstərilən xidmətlərin səviyyəsini yüksəltmişdir. Burada kənddə yetişdirilən məhsullarla yanaşı, keyfiyyətli ərzaq və sənaye malları da satışa çıxarılır. Mərkəzdə 4 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra sakinlərlə görüş olmuşdur.

Ali Məclisin Sədri demişdir ki, Xal-xal kəndi müasir yaşayış məntəqəsinə çevrilmişdir. Zəhmətkeş insanları və bərəkətli torpaqları olan bu kənddə aparılan kompleks quruculuq tədbirləri insanların rahat yaşayışına imkan verəcəkdir. Sakinlər yaradılan şəraitdən

*Ardı 3-cü səhifədə*






istifadə etməli, kəndin abadlığı, təmizliyi qorunub saxlanılmalıdır. Ali Məclisin Sədri qarşıdan gələn Qurban bayramı münasibətilə sakinləri təbrik etmiş, onlara firavan həyat arzulamışdır.

Kənd ağsaqqalı Hamlet Bağırov sakinlər adından minnətdarlıq edərək demişdir: Xalxal kəndində aparılan quruculuq işləri bütün sahələri əhatə etmiş, yollar abadlaşdırılmış, kənd və xidmət mərkəzləri, məktəb binası kəndə qəsəbə görkəmi vermişdir. Bu gün kənddə əhalinin məşğulluğunun təmin olunması, təsərrüfatların inkişafı, insanların rahat və firavan yaşaması üçün hər cür şərait vardır. Bütün bunlar ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin bəhrələridir. Bu gün ölkəmiz davamlı inkişaf mərhələsindədir. Sabitlik və firavanlıq şəraitində yaşayırıq. Sakinlər göstərilən qayğının müqabilində daha səylə çalışacaq, ulu öndərimizin siyasi xəttinə daim sədaqət göstərəcək, ölkəmizin inkişafında, aparılan abadlıq-quruculuq işlərində yaxından iştirak edəcəklər.

* * *

Kənddə aparılan abadlıq-quruculuq tədbirləri çərçivəsində 1100 metr yeraltı rabitə, 800 metr fiber-optik, 3 kilometrdən artıq elektrik xətti çəkilmişdir. Həmçinin yeni tikililərə 680 metr uzunluğunda qaz xətti çəkilmiş, 200 metr məsafədə damcılı suvarma şəbəkəsi qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**





# Muxtar respublikada dövlət gənclər siyasəti uğurla həyata keçirilir

***Ümummilli liderimiz Heydər Əliyev sağlam düşüncəli gənc nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifələrindən biri kimi müəyyənləşdirmişdir. Ulu öndərin müəllifi olduğu dövlət gənclər siyasəti bu gün ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Muxtar respublikada gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakı təmin edilir, gənc istedadlara dövlət qayğısı günbəgün artırılır. Xüsusilə onların yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda və vətənpərvər böyüdülməsi diqqət mərkəzində saxlanılır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu 2015-ci ildə fəaliyyətini bu istiqamətdə qurmuş, gənclərin intellektual inkişafı və asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılmış, aidiyyəti qurumlarla birlikdə müxtəlif tədbirlər həyata keçirmişdir. Hər il olduğu kimi, bu il də fevralın 2-də Gənclər Günü münasibətilə gənclərlə ənənəvi görüş keçirilmişdir. Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə 400-ə yaxın fəal gənc iştirak etmiş, geniş konsert proqramı təşkil olunmuş, təhsildə, dövlət qulluğunda, ictimai işlərdə və digər sahələrdə fərqlənən 85 gənc mükafatlandırılmışdır. Həmçinin iyulun 14-də Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi ilə birlikdə Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclərlə növbəti görüş keçirilmiş, 82 fəal gənc mükafatlandırılmışdır.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, təhsil alması, bu kateqoriyadan olan istedadlı uşaqların üzə çıxarılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə martın 6-da sağlamlıq imkanları məhdud uşaqlar arasında bədii qiraət, martın 13-də isə Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda vətənpərvərlik mövzusunda rəsm müsabiqələri keçirilmişdir. Hər iki müsabiqənin qaliblərinə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və qiymətli hədiyyələr təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu gənclərin intellektual inkişafı məqsədilə müxtəlif intellektual oyunlar, yaradıcılıq müsabiqələri təşkil edir. Bu ilin ötən dövründə "Nuh yurdu" intellektual oyununun Şərur, Babək, Culfa və Ordubad rayon birincilikləri keçirilmişdir. Bundan başqa, aprelin 6-dan mayın 6-dək Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə ümumtəhsil məktəblərinin X-XI sinif şagirdləri arasında ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü münasibətilə "Ümummilli lider Heydər Əliyev və Naxçıvan" mövzusunda inşa yazı müsabiqəsi keçirilmiş, gənclərin ulu öndərimizin dövlətçilik fəaliyyətinin Naxçıvan dövrü, Naxçıvanın muxtariyyətinin qorunması və müasir inkişafı yolunda gördüyü misilsiz xidmətləri barədə bilikləri yoxlanılmış və möhkəmləndirilmişdir. 100-ə yaxın inşa yazının təqdim olunduğu müsabiqədə münsiflər heyəti gənclərin bu sahədə biliklərini və yaradıcılıq qabiliyyətlərini yüksək qiymətləndirmiş, qalib gələn 13 gənc mükafatlandırılmışdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə 15 may Beynəlxalq Ailə Gününə həsr olunmuş "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda yeniyetmə və gənclər arasında ikinci muxtar respublika yazı və rəsm müsabiqəsinin keçirilməsi də gənc istedadların yaradıcılıq imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətli olmuşdur. Müsabiqəyə 80-dən artıq rəsm əsəri və inşa yazısı təqdim edilmiş, 20 gəncin işi qənaətbəxş hesab olunmuşdur.

Gənclərin yaradıcılıq müsabiqələri bu gün də davam etdirilir. Gənclər Fondu mayın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu ilə birlikdə "Naxçıvan: müstəqillik illərində" mövzusunda gənclər arasında yaradıcılıq müsabiqəsi elan etmişdir. Publisistika və teleradio materialları, rəsm əsərləri, ədəbi nümunələr, musiqi əsərləri və elmi-tədqiqat işləri kateqoriyalarında keçirilən yaradıcılıq müsabiqəsi noyabrın 30-na qədər davam edəcəkdir.

Gənc istedadların iştirakı ilə tədbirlərin və konsert proqramlarının təşkil edilməsi onların gələcək fəaliyyətinə stimul verir. Bu tədbirlərin davamı olaraq may və iyun aylarında Mədəniyyət və Turizm Nazirliyi ilə birgə Penitensiar Xidmətin Qarışıqtipli Cəzaçəkmə Müəssisəsində

*Ardı 4-cü səhifədə*

Naxçıvan şəhərində fəaliyyət göstərən uşaq musiqi və bədii sənətkarlıq məktəbləri şagirdlərinin konsert proqramı təşkil olunmuşdur.

Gələcəyimiz olan gənclərə vətənpərvərlik hislərinin aşılanması onların layiqli vətəndaş kimi böyüməsində mühüm əhəmiyyət kəsb edir. Hər il bu istiqamətdə ardıcıl tədbirlər görülür, gənclər muxtar respublikanın şəhər və rayonlarında vətənpərvərlik mövzusunda təşkil edilən müxtəlif tədbir və tamaşalara cəlb olunurlar. Təsdiq edilən tədbirlər planına uyğun olaraq, bu il Naxçıvan, Şərur və Culfa şəhərlərində, həmçinin Culfa rayonundakı N saylı hərbi hissədə Həsənali Eyvazlının “Araz sahilində doğan günəş”, Babək Rayon Mədəniyyət Evində Adil Babayevin “Koroğlunun Çənlibelə qayıdışı”, Naxçıvan Dövlət Musiqili Dram Teatrında, Naxçıvan şəhərindəki Zabitlər Evində və Ordubad şəhərində İftixar Piriyevin “Qurtuluş dastanı” tamaşaları gənclərə, əsgər və zabitlərə təqdim olunmuşdur. Həmçinin 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 12 mart tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına uyğun olaraq, ali və orta ixtisas təhsili müəssisələri tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, əsgər və zabitlər üçün “Əsgər atası” və “Uzaq sahillərdə” filmləri nümayiş olunmuşdur. Bundan başqa, “Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli Sərəncamına uyğun olaraq, Naxçıvan şəhərindəki Zabitlər Evində və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında tədbirlər keçirilmiş, görkəmli sərkərdənin həyat və fəaliyyətindən bəhs edən filmə baxış olmuş, onun Naxçıvan şəhərindəki ev-muzeyində məktəblilərin iştirakı ilə açıq dərslər keçirilmişdir.

Çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması və onların vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunması da görülən işlərin mühüm tərkib hissəsidir. Gənclərlə əsgərlərin görüşlərinin keçirilməsi, hərbi hissələrdə konsert proqramlarının təşkil edilməsi 2015-ci ildə də davam etdirilmiş, Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə Culfa rayonunda yerləşən N saylı hərbi hissədə, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasında gənclərin əsgər və zabitlərlə görüşü olmuş, Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivinin, Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının, Kəngərli Rayon Mədəniyyət Evinin xalq çalğı alətləri ansamblının hərbi hissələrdə konsertləri təşkil olunmuşdur.

Son illər muxtar respublikada təbiətin mühafizəsi və ekoloji tarazlığın qorunması istiqamətində ardıcıl tədbirlər görülür, geniş yaşıllıqlar salınır. Bu sahədə gənclərimiz də fəallıq göstərir, ətraf mühitin qorunmasının əsl təşəbbüskarı kimi çıxış edirlər. 5 iyun Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ərəfəsində gənclərin iştirakı ilə Şahbuz Dövlət Təbiət Qoruğunda “Ətraf mühiti qoruyaq”, Uzunoba gölü ətrafında “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizləri altında aksiyalar keçirilmiş, eləcə də gənclər Ordubad Milli Parkına ekskursiya etmişlər. Həmçinin 200-dən çox yeniyetmə və gəncin iştirakı ilə AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağında muxtar respublikada təbiətin qorunması ilə bağlı dəyirmi masa keçirilmişdir.

Naxçıvan şəhərindəki Gənclər Mərkəzi bu gün gənc nəslin ən çox üz tutduğu müasir ünvanlardan biridir. Burada gənclərin intellektual inkişafı, xüsusilə də xarici dil biliklərinin möhkəmləndirilməsi üçün hərtərəfli şərait vardır. 2014-cü ilin aprel ayından başlayaraq mərkəzdə keçirilən ingilis, rus və fransız dilləri üzrə hazırlıq kurslarında yüzlərlə gənc iştirak etmişdir. Bu il fevralın 23-dən 59 gəncin iştirakı ilə növbəti xarici dil kursları fəaliyyətə başlamışdır. 5 ay davam edən kurslarda yazılı və şifahi olmaqla, iki mərhələdən ibarət sertifikat imtahanı keçirilmiş, 35 nəfər imtahanlarda iştirak etmək hüququ qazanmışdır. Onlardan 19-u imtahandan müvəffəqiyyətlə keçərək sertifikat almışdır. Kurslarda iştirak edən 8 muzey işçisindən 7-si sertifikat alanlar sırasında olmuşdur.

Asudə vaxtın səmərəli təşkili də gənclərin hərtərəfli inkişafında mühüm rol oynayır. Hər il olduğu kimi, 2015-ci ildə də yay tətili günlərində Ağbulaq İstirahət Mərkəzində yay məktəbinin təşkil olunması məhz bu məqsədə xidmət etmişdir. Bu il keçirilən yay məktəblərində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan 150 gənc iştirak etmişdir. Yay məktəbi günlərində müxtəlif müsabiqələr, idman və intellektual oyunlar, ekskursiyalar təşkil olunmuş, Azərbaycan filmləri nümayiş etdirilmişdir.

*Ümumiyyətlə, 2015-ci ilin ötən dövrü ərzində keçirilən müxtəlif layihələrdə, yaradıcılıq müsabiqələrində və bilik yarışlarında muxtar respublika üzrə 6 minə yaxın gənc iştirak etmiş, 250-yə yaxın gənc mükafatlandırılmışdır.*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun mətbuat xidməti***

# “Naxçıvan-Şərur el yallıları” kitabının təqdimat mərasimi keçirilib

***Sentyabrın 22-də Naxçıvan Dövlət Filarmoniyasının akt zalında “Naxçıvan-Şərur el yallıları” kitabının təqdimat mərasimi keçirildi.***






Təqdimat mərasimini açıq elan edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar Siyasət Məsələləri və İctimai Təşkilatlarla İş Şöbəsinin müdiri Rəhman Məmmədov kitabın işıq üzü görməsi münasibətilə ziyalıları, musiqişünasları, muxtar respublika oxucularını təbrik etdi, kitabın müəlliflərinə minnətdarlığını bildirdi.

Rəhman Məmmədov qeyd etdi ki, Azərbaycan xalqının milli dəyərlərinin və tarixi yaddaşının bərpasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Milli dəyərləri xalqımızın varlığının vacib şərti hesab edən ümummilli lider Heydər Əliyev deyirdi: ***“Milli dəyərləri olmayan millət həqiqi millət, milli dəyərləri olmayan xalq həqiqi xalq ola bilməz. Bizim milli dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Biz öz milli dəyərlərimizlə fəxr edirik”.***

Bildirildi ki, milli dəyərlərin, onun əsas daşıyıcısı olan xalq yaradıcılığının qorunması, tədqiqi və təbliği sahəsində ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan siyasət muxtar respublikamızda uğurla davam etdirilir. 1995-2015-ci illər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən mədəni irsimizin qorunması, yeni muzeylərin yaradılması, xalq yaradıcılığının inkişaf etdirilməsi, tarixi abidələrin mühafizəsi və bərpası, görkəmli şəxsiyyətlərin yubileylərinin qeyd olunması sahəsində 100-dən çox fərman və sərəncam, o cümlədən “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” Sərəncam imzalanmış, 2012-ci il muxtar respublikamızda “Milli dəyərlər ili” elan olunmuş, xalqımızın qədim xalq yaradıcılığı ənənələrinin yaşadılması, gələcək nəsillərə ötürülməsi sahəsində mühüm işlər görülmüşdür. Ötən müddət ərzində beynəlxalq rəsm, folklor və muğam festivalları, ədəbi tədbirlər, sərgi, müsabiqə və seminarlar keçirilmiş, qədim xalq sənəti nümunələri canlandırılmış, kitab, jurnal və kataloqlar çap edilmiş, televiziya filmləri hazırlanmışdır.

Diqqətə çatdırıldı ki, xalq yaradıcılığının ən geniş yayılmış növlərindən biri yallılardır. Naxçıvandakı qədim yaşayış məskənlərində, xüsusilə Gəmiqaya abidəsindəki daş salnamələrdə əks olunan yallı elementləri Naxçıvan yallılarının tarixinin qədimliyini təsdiq edir. Əsrlərboyu Naxçıvan istər Qafqaz, istər Yaxın və Orta Şərq, istərsə də Avropa xalqları arasında “yallıların vətəni”, “yallıların məskəni” kimi tanınmışdır. Məhz buna görə də ümummilli lider Heydər Əliyev Naxçıvanın qədim mədəniyyət abidəsi olan yallını qorumağı və yaşatmağı tövsiyə etmiş, bu folklor irsini “Naxçıvanın tacı” adlandırmışdır.

“Muxtar respublikamızda yallıların qorunması, yaşadılması və təbliği sahəsində də mühüm işlər görülür. Hazırda muxtar respublikada müxtəlif yallı qrupları fəaliyyət göstərir. Xalq yaradıcılığının ən qədim qaynağını yaşadan bu kollektivlər milli geyimlərlə təmin olunmuş, “Şərur yallıları”ndan ibarət disk buraxılmışdır”, – deyən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar Siyasət Məsələləri və İctimai Təşkilatlarla İş Şöbəsinin müdiri bildirdi ki, yallı kollektivlərinin fərqlənən üzvləri diqqətdən kənarda qalmamış, onlara fəxri adlar verilmişdir. “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Milli dəyərlərimiz – yallı” Folklor Festivalının keçirilməsi isə muxtar respublikada yallı kollektivlərinin fəaliyyətini daha da gücləndirmişdir.

Vurğulandı ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə Naxçıvanın tarixi, etnoqrafiyası, mədəniyyəti, folkloru, görkəmli şəxsiyyətləri ilə bağlı kitabların nəşri artıq ənənə halını almışdır. Təqdimatına toplaşdığımız “Naxçıvan-Şərur el yallıları” kitabı da bu istiqamətdə növbəti çap məhsuludur. Kitab zəngin xəzinəmiz olan bu xalq musiqi və xoreoqrafiya incilərinin qorunub saxlanılması və gələcək nəslə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Prezident təqaüdçüsü, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Əkrəm Məmmədlinin və Naxçıvan Dövlət Universitetinin magistrantı Kənan Məmmədlinin ərsəyə gətirdiyi bu kitabda Azərbaycan xalq musiqi janrına aid olan yallılar, həmçinin yallıları müşayiət edən musiqi dəstəsi və bu dəstədə istifadə olunan çalğı alətləri, Şərurda ifa olunan yallılar haqqında məlumat verilmişdir. 90-dan çox yallının toplanaraq nota salınması kitabın dəyərini daha da artırmışdır.

Rəhman Məmmədov əmin olduğunu bildirdi ki, nəfis tərtibatla nəşr olunan “Naxçıvan-Şərur el yallıları” kitabı musiqişünaslar, yallı kollektivləri, tələbələr, eləcə də tədqiqatçılar və oxucular üçün faydalı olacaqdır.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova qeyd etdi ki, bu gün Naxçıvanın mədəni həyatı rəngarəng və çoxçalarlıdır. Bu mədəniyyət hadisələri içərisində son illər ənənə şəklini almış kitab təqdimatlarının da özünəməxsus yeri vardır. Son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğı və himayəsi sayəsində Naxçıvanın tarixi, mədəniyyəti, incəsənəti, folkloru, görkəmli şəxsiyyətləri, milli dəyərləri ilə bağlı nəşr olunmuş kitabların təqdimetmə mərasimləri dövlətimizin bu sahəyə xüsusi önəm verdiyinin göstəricisidir.

Nazir bildirdi ki, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, tanınmış tarzən və pedaqoq Əkrəm Məmmədli və Kənan Məmmədlinin zəhməti nəticəsində işıq üzü görən “Naxçıvan-Şərur el yallıları” kitabı Azərbaycan xalq musiqi janrına aid olan yallıları, onların ifa xüsusiyyətlərini və not yazılarını əks etdirən nadir kitabdır. Kitabda verilmiş şəkillər, yallı ilə bağlı yazılmış yığcam və lakonik yazılar onun geniş ictimaiyyət üçün nəzərdə tutulduğunu göstərir. Qədim yallılarımızın toplanması və nəşri həm də istedad və zəhmətin vəhdətinin göstəricisidir.

“Şərur” Xalq Yallı Ansamblının direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva çıxışında dedi ki, təqdimatına toplaşdığımız “Naxçıvan-Şərur el yallıları” kitabı yallılarımızın yaşadılması və qorunması baxımından olduqca əhəmiyyətlidir. Kitabda “Şərurda ifa olunan yallılar” başlığı altında “Şərur” Xalq Yallı Ansamblı, “Şərur qönçələri” Uşaq Yallı Ansamblının fəaliyyətinə yer ayrılmış, məlumatlar verilmişdir. Kitabda nota salınan bəzi yallılar ansamblların repertuarlarına əlavə ediləcəkdir.

Göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirən “Naxçıvan-Şərur el yallıları” kitabının müəlliflərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Əkrəm Məmmədli vurğuladı ki, muxtar respublikamızla, onun tarixi, maddi-mədəniyyət abidələri ilə, milli-mənəvi dəyərləri ilə bağlı dəyərli əsərlərin Ali Məclis Sədrinin qayğısı və himayəsi sayəsində nəşr olunması, xalqın istifadəsinə verilməsi gözəl ənənə halını almışdır. Bu, ziyalıları çox sevindirir.

Təqdimat mərasiminə yekun vuran Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar Siyasət Məsələləri və İctimai Təşkilatlarla İş Şöbəsinin müdiri Rəhman Məmmədov “Naxçıvan-Şərur el yallıları” kitabının muxtar respublikadakı ali təhsil ocaqlarının, Naxçıvan Musiqi Kollecinin, uşaq musiqi məktəblərinin kitabxanalarına verildiyini bildirdi, bu istiqamətdə görülən işlərin davamlı xarakter aldığını diqqətə çatdırdı.

**Rauf ƏLİYEV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 724